AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**ANAR AKTİV OĞLU HÜSEYNOV**

# XARİCİ DÖVLƏT BORCLARININ ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINA TƏSİRİ

**İxtisas: 5301.01 – Daxili fiskal siyasət və dövlət maliyyəsi**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Saleh Məmmədəli oğlu Məmmədov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Arif Şəkərəli oğlu Şəkərəliyev**

iqtisad üzrə fəlsəfə doktoru
**Ağanemət Qadir oğlu Ağayev**

**Aparıcı təşkilat:** Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu

Dissertasiya işinin müdafiəsi "30" oktyabr 2013-cü il saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin D 02.051 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universiteti.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat " 30" sentyabr 2013-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi, i.ü.f.d., dos. Z.İ.Mustafayeva**

## İşin ümumi xarakteristikası

**Tədqiqatın aktuallığı.** Bazar iqtisadiyyatı şəraitində baş verən transformasiya prosesləri, iqtisadiyyatın yenidən qurulması və müasir infrastrukturun formalaşdırılması hər bir ölkədə maliyyə resurslarına çox böyük tələbat yaradır. Bu tələbat ölkənin daxili maliyyə resursları hesabına təmin edilə bilmədiyi hallarda, o zaman xarici mənbələrdən vəsaitlərin cəlb edilməsinə zərurət yaranır. Bu zaman belə mənbələrin axtarılıb tapılması ilə yanaşı, ölkə iqtisadiyyatına cəlb olunan həmin vəsaitlərdən səmərəli istifadə edilməsi strateji əhəmiyyət kəsb edir. Əks halda bu maliyyə vəsaitləri ölkə iqtisadiyyatı və gələcək nəsillər üçün ağır yükə çevrilməklə, inkişafa kifayət qədər mənfi təsir göstərir. Bir çox hallarda ölkə iqtisadiyyatı üçün bu təsir uzunmüddətli ola bilir. Nəticə etibarilə, borc məngənəsinə düşən ölkə xarici maliyyə mənbələrindən resurs asılılığı vəziyyətinə gəlib çıxır ki, bu da onun iqtisadi, hətta ümumi təhlükəsizliyi baxımından ciddi təhdidlər yaradır.

Bu səbəbdən xarici borc resurslarından səmərəli istifadə edilməsi məqsədilə onların təkmil idarəedilməsi sisteminin yaradılması, borc yükünün azaldılması və xarici maliyyə vəsaitlərinin ölkə iqtisadiyyatının inkişafı amilinə çevrilməsi dövlətin həyata keçirdiyi iqtisadi siyasətin mühüm prioritetlərindən biri olmalıdır. Problemin bu istiqamətdə həllinə nail olmaq təkcə qısamüddət üçün nəzərdə tutulmuş fəaliyyətin yox, məhz ölkənin dayanıqlı inkişafını təmin edə biləcək uzunmüddətli strategiyasının hazırlanması və həyata keçirilməsinə zərurəti artırır. Bu zərurətin reallaşması, öz növbəsində xarici borc vəsaitlərindən rasional istifadə edilməsi problemi ilə bağlı vahid konsepsiyanın hazırlanmasını, problemin kompleks həlli istiqamətində səlahiyyətli strukturların fəaliyyətinin optimal əlaqələndirilməsini tələb edir.

Qeyd olunan cəhətlərlə yanaşı, xarici borc vəsaitlərinin cəlb edilməsi ilə iqtisadi inkişaf məsələləri arasında əlaqələrin tədqiqi sahəsində kifayət qədər tədqiqatların aparılmaması bu gün dinamik inkişaf edən, dünya iqtisadi sisteminə sürətlə

inteqrasiya olunan, bu sistemin tələblərinə uyğun infrastrukturun formalaşdırılmasına səy göstərən respublikamız üçün xarici borc probleminin əhəmiyyəti və rolu, eləcə də onun həlli və iqtisadi inkişafa təsiri aspektləri tədqiqat mövzusunun aktuallığını əsaslandıran xüsusiyyətlərdir.

**Problemin öyrənilmə səviyyəsi.** Xarici dövlət borcu probleminin öyrənilməsi, onun iqtisadi inkişaf məsələlərində rolunun araşdırılması ilə bağlı həm MDB məkanında, həm də xarici ölkə mütəxəssisləri tərəfindən müxtəlif tədqiqatlar aparılmışdır.

Ölkəmizdə bu problemin nəzəri-metodoloji və praktiki aspektlərinin öyrənilməsinə müstəqillik əldə etdikdən sonra başlanılmışdır. Xarici dövlət borcu probleminin müxtəlif aspektləri ilə bağlı respublikamızda iqtisadçı alimlərdən prof. Ş.H.Hacıyev, prof. D.A.Bağırov, prof. Ə.İ.Bayramov, prof. M.X.Həsənli, prof. A.Ş.Şəkərəliyev, prof. S.M.Məmmədov, prof. R.T.Həsənov, prof. T.Ə.Quliyev, prof. V.T.Novruzov prof. M.M.Sadıqov, prof. Ş.S.Qafarov, dos. M.İ.Bərxudarov, i.ü.f.d. A.Q.Ağayev və başqaları tərəfindən tədqiqatlar aparılmış, dəyərli elmi əsərlər yazılmışdır.

Rusiyalı alimlərdən Анкина А.Б., Амирханова Ф.Ж., Ансимов А.С, Балацкий Е., С.М. Борисов, А. Быков, Ю.Я. Вавилов, Д.В. Вторыгин, Д.Л. Головачев, В.М. Давыдова, Е.А. Звонова, А. Илларионов, А.М. Кнастер, Н. Паутола, В.Л. Семенов, Михеева В.В., Федякина Л.Н., Хайхадаева О.Д., Хейфец Б.А., Андрийасова Я.А., Евгеньевич С.А., Николаевна К.Е., Александрович Д.В. və b. qeyd etmək olar.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi müasir bazar münasibətləri şəraitində xarici borc amilinin iqtisadi inkişafa təsirinin öyrənilməsidir. Bu məqsədin həyata keçirilməsi üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və məntiqi ardıcıllıqla yerinə yetirilmişdir:

- xarici borc probleminin yaranması səbəblərinin nəzəri-metodoloji və praktiki qanunauyğunluqlarının araşdırılması;
- borc iqtisadiyyatının inkişaf parametrlərinin tədqiqi və

xarici borclanma göstəricilərinin sistemləşdirilməsi;

- maliyyə qloballaşması proseslərində xarici borc amilinin rolunun müəyyənləşdirilməsi;
- sosial-iqtisadi inkişaf prosesində xarici borc resurslarının rolunun öyrənilməsi;
- Azərbaycan Respublikasında xarici borc bazarının tədqiqi;
- xarici borc öhdəliklərinin tənzimlənməsi sahəsində beynəlxalq mexanizmin formalaşması xüsusiyyətlərinin və perspektiv imkanların araşdırılması;
- Azərbaycan Respublikasında xarici borc siyasətinin perspektivlərinin müəyyən edilməsi və bu istiqamətdə strateji vəzifələrin konkretləşdirilməsi.

**Tədqiqatın obyekti kimi** iqtisadi inkişafda xarici dövlət borclarının rolu və əhəmiyyəti seçilmişdir.

**Tədqiqatın predmetini** – iqtisadi inkişafın təmin olunmasında xarici dövlət borcu resurslarından istifadə imkanlarının öyrənilməsi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** - yerli və xarici ölkələrin iqtisadçı alimlərinin xarici borc probleminin müxtəlif aspektlərinin tədqiqinə həsr edilmiş əsərləri, eləcə də Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, dövlət borcu haqqında, həmçinin iqtisadiyyatın müxtəlif sahələri ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyi, hökumətin digər fərman və sərəncamları, normativ və hüquqi aktlar təşkil edir.

Tədqiqat işinin yerinə yetirilməsində məntiqi ümumiləşdirmə, müqayisəli və sistemli təhlil, analitik-statistik və SWOT təhlil kimi tədqiqat metodlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** - Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin materialları, Mərkəzi Bankın, Dövlət Neft Fondunun və Vergilər Nazirliyinin hesabatları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları, beynəlxalq maliyyə qurumlarının rəsmi sənəd və hesabatları, elektron resurslar, eləcə də digər materiallar təşkil edir.

**Tədqiqat işinin elmi yeniliyi**. Tədqiqat işi bazar iqtisadi sisteminə sürətlə inteqrasiya şəraitində respublikamızda geniş miqyaslı sosial-iqtisadi islahatların həyata keçirildiyi bir vaxtda bu istiqamətdə xarici borc resurslarından səmərəli istifadə imkanlarının kompleks tədqiqinə həsr olunmuş ilk elmi-tədqiqat işidir. Tədqiqatın elmi yeniliyini şərtləndirən mühüm xüsusiyyətlərdən biri də odur ki, tədqiqat prosesində xarici borc və iqtisadi inkişaf arasında əlaqələrin nəzəri və praktik məsələləri tədqiq olunmuş, ölkəmizin inkişafı istiqamətində bu kontekstdə araşdırmalar aparılmış, müvafiq təklif və tövsiyələr hazırlanmışdır.

Tədqiqatın elmi yeniliyini aşağıdakı istiqamətlərdə konkretləşdirmək olar:

- iqtisadi inkişafa nail olunması prosesində xarici borc amilinin təsirilə bağlı nəzəri-metodoloji ümumiləşdirmələr aparılmış və yanaşmalar sistemləşdirilmişdir;
- kapitalın beynəlxalq hərəkəti ilə xarici borclanma arasındakı əlaqələr nəzəri-metodoloji baxımdan tədqiq edilmişdir;
- müasir iqtisadi proseslərin inkişafı kontekstində xarici borc vəsaitlərinin cəlb edilməsinin bazar metodları və mexanizmlərinin təkmilləşdirilməsi meylləri müəyyən edilmişdir;
- qloballaşma prosesləri fonunda xarici borc vəsaitlərinin iqtisadi inkişafın mühüm və əhəmiyyətli maliyyələşdirilməsi mənbələrindən biri kimi rolu əsaslandırılmışdır;
- Azərbaycanın xarici borcları ilə bağlı vəziyyət təhlil edilmiş, iqtisadi islahatlar şəraitində dayanıqlı inkişafa nail olmanın mühüm amillərindən biri kimi xarici borclanma və iqtisadi inkişaf problemləri arasında asılılq müəyyən edilmişdir;
- xarici borclanma probleminin tənzimlənməsi mexanizmləri sistemli təhlil edilmiş və onların tətbiqi imkanları müəyyənləşdirilmişdir;
- Azərbaycan Respublikasının xarici borc siyasətinin əsas istiqamətləri dəqiqləşdirilmişdir;
- Azərbaycanın beynəlxalq maliyyə bazarına inteqrasiyası şəraitində onun inkişaf strategiyasının perspektivləri müəyyən

edilmişdir.

**Tədqiqat işinin təcrübi əhəmiyyəti**. Tədqiqat işində əldə edilən nəticələr respublikamızın iqtisadi inkişafında xarici borc resurslarından istifadə istiqamətlərinin müəyyənləşdirilməsində, iqtisadi inkişaf proqramlarının işlənilməsində, perspektiv dövr üçün səmərəli və bazar iqtisadiyyatı prinsiplərinə uyğun xarici borc siyasətinin və bu istiqamətdə fəaliyyət strategiyasının işlənilib həyata keçirilməsində, ümumilikdə ölkənin iqtisadi inkişaf strategiyasının, xarici borcun çevik idarə edilməsi mexanizmlərinin formalaşmasında istifadə oluna bilər.

Dissertasiya işinin ayrı-ayrı fəsilləri və paraqrafları mühüm nəzəri-praktiki mənbə olaraq tədris materialı kimi istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın əsas müddəaları respublikada keçirilən elmi-praktiki konfranslarda, o cümlədən 2 beynəlxalq konfransda məruzə edilmiş, dissertasiyaya aid ümumi həcmi 3.75 ç.v. həcmində olan 7 məqalə və bir tezis çap olunmuşdur.

**Dissertasiyanın həcmi və quruluşu.** Dissertasiya giriş, üç fəsil, 8 paraqraf, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İşdə 16 cədvəl, 6 şəkil, 3 sxem verilmişdir.

Tədqiqatın strukturu aşağıdakı kimidir.

**GİRİŞ**

**I FƏSİL. Xarici dövlət borclarının iqtisadi inkişafa təsirinin nəzəri-metodoloji əsasları**

1.1. Bazar iqtisadi sistemində borc münasibətləri və onların yaranma səbəbləri

1.2. İqtisadi inkişaf kontekstində xarici borc problemi

1.3. Qlobal iqtisadi sistemdə xarici borcların iqtisadi inkişafa təsirinin xüsusiyyətləri

**II FƏSİL. Bazar münasibətləri şəraitində Azərbaycan iqtisadiyyatında xarici borcların qiymətləndirilməsi**

2.1. Azərbaycan Respublikasının xarici borclarının müasir vəziyyətinin təhlili

2.2. Azərbaycanın davamlı iqtisadi inkişafında xarici borc

amilinin rolunun qiymətləndirilməsi
2.3. Xarici borclanma şəraitində büdcə siyasəti
**III FƏSİL. Azərbaycan Respublikasında xarici borc probleminin həlli və onun təkmilləşdirilməsi mexanizmləri**
3.1. Xarici borc öhdəliklərinin tənzimlənməsi sahəsində beynəlxalq təcrübədən istifadə imkanları və yolları
3.2. Azərbaycanın xarici borc siyasətinin perspektivləri
**NƏTICƏ**
**İSTIFADƏ OLUNMUŞ ƏDƏBIYYAT**

## TƏDQİQATIN MÜDAFİƏYƏ TƏQDİM OLUNAN ƏSAS MƏZMUNU VƏ NƏTİCƏLƏRİ

**1. Bazar iqtisadi sistemində borc münasibətləri və onların yaranma səbəbləri.**

Sosial-iqtisadi sistemdə struktur islahatlarının həyata keçirilməsi ilə əlaqədar artıq həcmdə maliyyə vəsaitlərinə yaranan tələbat bu məqsədlə əlavə maliyyə mənbələrinin tapılmasına ehtiyac yaradır. Bu zaman dövlət iki seçim qarşısında qalır: ya vergiləri artırmaq, ya da borc almaq, yəni dövlətin öz funksiyalarını həyata keçirməsi zamanı qarşıya çıxan əlavə xərclərin maliyyələşdirilməsində büdcənin öhdəsindən gələ bilmədiyi məbləgin borc vəsaitləri hesabına təmin edilməsi. Beləliklə, dövlətin öz üzərinə düşən vəzifələri yerinə yetirməsi zərurəti borc vəsaitlərindən istifadəyə zəmin yaradır. Nəticədə, dövlət borcu anlayışı, borc münasibətləri kateqoriyası meydana gəlmiş və inkişaf etmişdir. Təsadüfi deyil ki, bu gün bazar iqtisadi sistemində borc amili sosial-iqtisadi inkişafın müəyyənedici amillərindən birinə çevrilmiş və bu konteksdə yaranan borc münasibətləri beynəlxalq iqtisadi münasibətlər sisteminin ayrılmaz elementinə çevrilmişdir.

Xarici borc rezidentlərin qeyri-rezidentlər qarşısında alınmış kreditlər (borclar) üzrə toplanmış, yığılmış öhdəlikləri və bu kreditlər üzrə qaytarılmamış faizlərin məcmusu olmaqla, dünya ölkələri və onların rezidentləri arasında maliyyə vəsaitlərinin yenidən bölüşdürülməsi mexanizmi rolunu oyna-

yır. Bu baxımdan, öz iqtisadiyyatına borc vəsaitləri cəlb edən ölkələrin iqtisadi imkanlarının, eləcə də bu vəsaitlərdən istifadə prioritetlərinin dəqiq müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir.

Dissertasiyada xarici borc münasibətlərinin yaranması problemi bu günki iqtisadi qloballaşma fonunda kapitalın axını, onun beynəlxalq hərəkəti ilə əlaqələr kontekstində araşdırılır. Bu məqsədlə tədqiqat işində beynəlxalq miqyasda kapitalın hərəkəti, kapital axını, kapitalın beynəlxalq miqrasiyası, maliyyə vəsaitlərinin borc formasında ölkələr arasında miqrasiyası ilə bağlı müxtəlif yanaşmalar geniş təhlil edilmişdir. Nəticədə belə qənaətə gəlinir ki, ölkələrin xarici borc vəsaitlərinə meylli olmaları, kapitalın hərəkəti, bu günki iqtisadi qloballaşma prosesləri üçün xarakterik olan cəhətdir. Məhz ayrı-ayrı ölkələrin fərqli inkişaf səviyyələrinə malik olmaları onlar arasında borc münasibətlərinin yaranması və inkişafı, kapitalın, maliyyə axınlarının hərəkəti üçün müəyyənedici amillərindən biri kimi çıxış edir. Xarici borclanma, borcun qaytarılması və borca görə faizlərin ödənilməsi isə kredit formasında kapitalın beynəlxalq hərəkətinin əks tərəfini özündə ehtiva edir.

Bu səbəbdən hesab edirik ki, xarici borc münasibətlərinin inkişaf etdirilməsi qloballaşan müasir arenada dünya birliyinə, dünya təsərrüfatı sisteminə inteqrasiya edən hər bir dövlət üçün onun xarici iqtisadi fəaliyyət strategiyasının mühüm prioritetlərindən biri olmalıdır.

**2. İqtisadi inkişaf kontekstində xarici borc problemi.**

Tədqiqat işində ilk növbədə bazar münasibətləri şəraitində borc iqtisadiyyatı və onun inkişafı xüsusiyyətləri, xarici dövlət borclarının formalaşması məsələləri, xarici dövlət borcunun formaları, strukturunun yenidən qurulması, onun tənzimlənməsində borcun müxtəlif vasitələrlə, yollarla konvertasiyası imkanlarından istifadə mexanizmləri, xarici borc böhranının aradan qaldırılmasında, xarici maliyyə mənbələrindən borc vəsaitlərinin cəlb edilməsi proseslərində dövləti təmsil edən

qurumların fəaliyyəti, xarici borcla bağlı münasibətlərin formalaşmasında xarici maliyyələşmə mənbələrinin rolu və s. məsələlər öz əksini tapmışdır.

Tədqiqatda xarici borcun iqtisadi inkişafda rolu ilə bağlı üç cəhəti, borcun həddi, keyfiyyəti və strukturu nəzərdən keçirilir. Xarici borcun həddi hər bir dövlət üçün müxtəlif ola bilər. Burada əsas məsələrdən biri isə borcun ölkənin ÜDM-dəkı xüsusi çəkisidir.

Xarici borcun keyfiyyəti onun ödənilmə qabiliyyəti, tədiyəqabilliyəti ilə bağlıdır və bir neçə göstərici əsasında proqnozlaşdırıla bilir. Bunlardan ən əsaslıları xarici borcun ÜDM-ə nisbəti və xarici borcun ölkənin illik ixrac həcminə nisbətidir. Bu göstəricilər xarici borc vəsaitlərini cəlb edən ölkələrin aldıqları borcu öz daxili imkanları hesabına qaytarmaq imkanlarını ifadə edir. Dünya təcrübəsində təsdiqini tapmış belə bir cəhət vardır ki, xarici borcun ÜDM-un 50%-i həddində olması xarici borc böhranını yaradır. Ölkənin xarici borcunun bu rəqəmi ötməsi onun tədiyəqabiliyyətini şübhə altına alaraq, ölkənin borc yükünün çox ağır, ciddi problem olduğuna dəlalət edir. Mərkəzi Afrika respublikalarında (Saxaranın cənub ölkələrində) bu göstərici bəzən 100%-i ötüb keçir.

Xarici borcun keyfiyyət göstəricisi ölkənin klassik formada xarici maliyyələşdirməni nə dərəcədə həyata keçirə bilmə qabiliyyətini ifadə edir. Bu, milli ixracdan daxil olan valyuta hesabına öz xarici borclarını qaytara bilmək imkanlarını nəzərdə tutur. Xarici borcunu qaytarmaqda çətinlik çəkən ölkə üçün bu göstərici 10-20% həddindədir. Xarici borc böhranının dərin olduğu ölkələrdə isə bu 500%-dir.

Dissertasiya işində xarici borcun formalaşmasının onun strukturundan asılılığı məsələlərinə də diqqət yetirilmişdir. Beynəlxalq təcrübədə bu göstərici subyektlərə kreditin verilməsi meyarı əsasında nəzərdən keçirilir, yəni xarici borc vəsaitlərinin hansı təşkilatlardan, iqtisadi subyektlərdən alınması nəzərdə tutulur.

**3. Qlobal iqtisadi sistemdə xarici borcların iqtisadi inkişafa təsirinin xüsusiyyətləri.**

Qloballaşma prosesi üçün sürətli və geniş miqyaslı inkişaf, dünya təsərrüfat əlaqələrinin, əməkdaşlığın, tərəfdaşlıq münasibətlərinin sürətli inkişafı, beynəlxalq ticarətin genişlənməsi, kapitalın dövriyyəsinin (axınının), onun miqyasının sürətlənməsi, coğrafiyasının genişlənməsi, beynəlxalq əmək bölgüsünün dərinləşməsi, istehsalın kooperasiyası, işçi qüvvəsinin, yüksək ixtisaslı mütəxəssislərin miqrasiyası, elmi-texniki əməkdaşlığın və mübadilənin beynəlxalq çərçivədə həyata keçirilməsi, bazarların, o cümlədən əmtəə, xidmət, əmək bazarının beynəlmilləşməsi, bir sözlə inkişafın qloballaşması xarakterikdir. Bunu nəticəsi olaraq, inteqrasiya proseslərinin dərinləşməsi fonunda milli iqtisadi sistemlərin birinin inkişafı digərinin inkişafını zərurətə çevirir. Fikrimizcə, bu inkişaf kontekstində, dünya təsərrüfatı sisteminin bərabərhüquqlu üzvü olaraq vahid dünya təsərrüfatı sisteminin formalaşması və inkişafında, eləcə də inteqrasiya proseslərində iştirakı fonunda qloballaşma hər bir milli dövlət üçün öz bəhrəsini verə bilər.

Məhz bu səbəbdən tədqiqat işində qlobal iqtisadi sistemdə xarici borc münasibətlərinin formalaşması məsələləri, qloballaşma və xarici borclanma problemi, qloballaşma proseslərinin xüsusiyyətləri, iqtisadi qloballaşmanın ictimai istehsalın inteqrasiyasının və beynəlmiləlləşməsinin xüsusi bir mərhələsi kimi dünya iqtisadiyyatına təsiri, iqtisadi qloballaşma fonunda baş verən beynəlmiləlləşmə prosesləri, o cümlədən istehsalın və kapitalın beynəlmiləlləşməsini, qloballaşma prosesləri fonunda baş verən inteqrasiya prosesləri, inteqrasiya prosesləri üçün xarakterik olan xüsusiyyətlər, qloballaşma proseslərinin üstünlükləri və yaratdığı mənfi nəticələr, dünya iqtisadiyyatının qloballaşmasının əsas istiqamətlərindən biri kimi maliyyə sisteminin qloballaşması, maliyyə qloballaşmasını səciyyələndirən əsas xüsusiyyətlər, maliyyə fəaliyyətinin qloballaşmasını sürətləndirən əsas proseslər öz əksini tapmışdır.

XXI əsrdə dünya iqtisadiyyatının qloballaşmasında texniki

tərəqqi, internet texnologiyalarının sürətli tətbiqi, qlobal elmi-texniki, informasiya şəbəkəsinin formalaşması əsas hərəkətverici qüvvə kimi çıxış edir. Bu inkişaf fonunda xarici iqtisadi sferanın inkişafı beynəlxalq maliyyənin də, xüsusilə xarici iqtisadi sferanın valyuta-maliyyə seqmentinin formalaşması və tərəqqisində mühüm rol oynamaqla, daxili istehsalın və MDM-un artımını sürətləndirir.

**4. Azərbaycan Respublikasının xarici borclarının müasir vəziyyətinin təhlili.**

Ölkəmizin xarici borcunun yaranması müstəqilliyin ilk illərindən etibarən intensiv xarakter almışdır. Bu dövr məlum olduğu kimi müstəqilliyin və keçid mərhələsinin ilk illərinə təsadüf edir. Genişmiqyaslı islahatların həyata keçirilməsi yenicə öz müstəqilliyini əldə etmiş bir ölkə üçün önəmli əhəmiyyət kəsb edirdi və onların maliyyələşdirilməsində boyük həcmdə maliyyə vəsaiti tələb olunurdu. Adətən belə bir şəraitdə yenicə müstəqillik qazanan ölkənin öz şəxsi vəsait mənbələri olmadıqda, o, xarici maliyyə mənbələrinə müraciət etməli olur. Nəticədə, müxtəlif mənbələrdən borc şəklində vəsaitlər ölkə iqtisadiyyatına cəlb olunur.

1995-ci ildə ölkənin xarici dövlət borcu 294 mln.ABŞ dolları olmuşdur, 2000-ci ildə isə bu rəqəm təxminən 3,95 dəfə artaraq, 1162 mln.dollara çatmışdır.




**Şəkil 1. Azərbaycan Respublikasının xarici dövlət borcu, mln.ABŞ dolları.**

**Mənbə:** Şəkil Maliyyə Nazirliyinin faktiki məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

2000-2005-ci illərdə bu artım 1,4 dəfə, 2005-2010-cu illərdə isə 2,34 dəfə təşkil etmişdir.

Tədqiqat işində ölkəmizin xarici dövlət borcun borc vəsaitlərinin müddəti baxımından qısa, orta və uzunmüddətli borclara ayırılmaqla təsnifləşdirilmişdir. Xarici borcun strukturunda 5 ilə qədər olan, 5 ildən 10 ilə qədər olan, 10 ildən 20 ilə qədər və 20 ildən yuxarı müddətə alınmış və qaytarılması nəzərdə tutulan borc resursları üstünlük təşkil etmişdir.

**Azərbaycan Respublikasının xarici dövlət borcunun ödəniş müddətinə görə təsnifləşdirilməsi, mln. ABŞ dolları.**

**Cədvəl 1**

| **Xarici borcun ödəniş müddəti** | **İllər** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **1995** | **2000** | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2010** |
| 5 ilə qədər olan | 90 | 355 | 105,6 | 76,2 | 95,2 | 42,4 | 29,1 | 8,5 |
| 5 ildən 10 ilə qədər olan | 156 | 272 | 77,6 | 84,8 | 105,1 | 479,7 | 156,8 | 47,2 |
| 10 ildən 20 ilə qədər olan | 18 | 241 | 505,1 | 844 | 1045,1 | 1096,4 | 1711,9 | 2162,2 |
| 20 ildən yuxarı | 30 | 294 | 962,2 | 967 | 1196,5 | 1382,5 | 1524 | 1639,5 |

**Mənbə:** Cədvəl Maliyyə Nazirliyinin faktiki materialları əsasında hazırlanmışdır.

1995-2000-ci illər ərzində xarici dövlət borcunun strukturunda 5 ilə qədər olan və 5-10 il müddətinə verilən borc vəsaitlərinin həcmi üstünlük təşkil etmiş və uyğun olaraq 30,6% və 53,1% olmuşdur. 2005-ci ildən etibarən 10-20 il və 20 ildən yuxarı müddətətə verilən xarici borc vəsaitlərinin həcmi, eləcə də ümumi strukturda onların xüsusi çəkisi davamlı şəkildə sürətlə artmaşdır. Müşahidə olunan bu meyllər son illər ölkəmizin iqtisadi inkişafında sürətli keyfiyyət dəyişikliklərinin baş verməsi, xarici borc münasibətləri sistemində ölkəmizə qarşı xarici kreditorlar tərəfindən inamın yaranması kimi amillərlə bağlıdır.

Azərbaycan Respublikasının iqtisadiyyatına cəlb edilən xarici borc vəsaitləri müxtəlif mənbələr hesabına formalaşmışdır. Xarici borc münasibətləri sistemində tərəfdaş kimi müxtəlif ölkələr, çoxtərəfli təşkilatlar, müxtəlif kommersiya bankları iştirak edirlər. 1995-2008-ci illər ərzində çoxtərəfli təşkilatlardan cəlb edilən borc vəsaitlərinin xüsusi çəkisi digər sub-

yektlərlə müqayisədə üstünlük təşkil etmişdir. Bu sırada BVF-dən alınan borcların da xüsusi çəkisi yüksək olmuşdur və 50%-lik həddi keçmişdir. Lakin 2001-ci ildən etibarən bu beynəlxalq təşkilatdan alınan borcların xüsusi çəkisində davamlı şəkildə azalma müşahidə edilmişdir.

**Azərbaycan Respublikasının xarici dövlət borcunun borc verən subyektlər üzrə strukturu, mln. ABŞ dolları**

**Cədvəl 2**

| Borcverənlər | İllər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1995 | 2000 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
| Çoxtərəfli təşkilatlar | 188 | 701 | 874,77 | 942,74 | 1039,86 | 1206,69 | 1498,95 | 1780,50 |
| o cümlədən, BVF | 102 | 370 | 214,57 | 196,61 | 100,57 | 78,92 | 61,96 | 47,60 |
| İkitərəfli kreditorlar (ölkələr) | 35 | 103 | 528,16 | 560,26 | 532,73 | 642,16 | 609,18 | 621,13 |
| İxrac kreditləri | 71 | 234 | 148,55 | 395,64 | 797,77 | 159,06 | 185,34 | 154,75 |
| Kommersiya bankları | - | 124 | 99,03 | 73,36 | 71,54 | 993,09 | 1128,30 | 1300,88 |

**Mənbə:** Cədvəl Maliyyə Nazirliyinin faktiki materialları əsasında hazırlanmışdır.

Baş verən bu tendensiyanı keçid mərhələsi ilə əlaqədar olarq həyata keçirilən islahatların maliyyələşdirilməsi istiqamətində beynəlxalq təşkilatlarla sıx əməkdaşlığın qurulması və onların maliyyə dəstəyinə ehtiyacın yaranması ilə əlaqələndirmək olar.

1998-ci ildən etibarən kommersiya banklarından xarici borc vəsaitləri ölkə iqtisadiyyatına cəlb edilməyə başlamışdır. 2008-ci ildən isə bu vəsaitlərin həcmində kəskin artma müşahidə edilmiş və ölkə iqtisadiyyatına xarici mənbələrdən cəlb edilən borc resurslarının strukturunda çoxtərəfli təşkilatlardan sonra kommersiya banklarından alınan xarici borcların xüsusi çəkisi 33,1% təşkil etməklə ikinci yerdə olmuşdur.

Xarici borc vəsaitlərinin ölkə iqtisadiyyatında səmərəli istifadə edilməsinin xarakterik əlamətlərindən biri kimi borca xidmət göstəriciləri mühüm rol oynayır. Burada həm xarici borclara görə faiz ödənişləri, həm də borcun əsas məbləği üzrə ödənişlər nəzərdə tutulur.

Xarici mənbələrdən cəlb edilən borc vəsaitlərinin qaytarıl-

masında dövlət büdcəsi hesabına edilən faiz ödənişlərinin payı nisbətən çox olmuş və 66,7% təşkil etmişdir. Onu da qeyd edək ki, 2004-cü ilə qədər BVF-nun faizləri ayrıca hesablansa da, 2004-cü ildən etibarən bu faizlər dövlət büdcəsindən ödəmələrin tərkibinə daxil olmuşdur. 2000-ci ildən etibarən isə büdcədənkənar ödənişlərin payı daha da artmışdır və 2001-2009-cu ilə qədər borca xidmətin strukturunda onların xüsusi çəkisi üstünlük təşkil etmişdir.

**Azərbaycan Respublikasının xarici dövlət borcu üzrə xidmət göstəriciləri, mln.ABŞ dolları**

**Cədvəl 3**

| Borclara xidmət göstəriciləri | İllər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1995 | 2000 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
| Cəmi | 3 | 95 | 118,45 | 131,42 | 169,68 | 286,02 | 287,74 | 319,02 |
| Faiz ödənişləri | 3 | 25 | 21,55 | 38,9 | 67,66 | 72,3 | 67,49 | 66,90 |
| Dövlət büdcəsindən | 2 | 2 | 8,19 | 11,40 | 29,81 | 20,87 | 25,28 | 40,59 |
| Büdcədənkənar ödənişlər | - | 9 | 13,37 | 27,50 | 37,85 | 51,43 | 42,21 | 26,31 |
| BVF-nun faizləri | 1 | 14 | 2,40 | 1,96 | 1,34 | 0,56 | 0,47 | 0,001 |
| Əsas borclar üzrə ödənişlər | 0 | 70 | 96,9 | 92,52 | 102,02 | 213,72 | 220,25 | 252,12 |

**Mənbə:** Cədvəl Maliyyə Nazirliyinin faktiki materialları əsasında hazırlanmışdır.

Azərbaycan Respublikasının xarici dövlət borcunun strukturunda 2003-cü ilə qədər başqa valyutalarda olan xarici borcların xüsusi çəkisi 59%-dək yüksəlsə də, 2004-cü ildən etibarən bu meyl təxminən 63% və 37% olmaqla ABŞ dollarının xeyrinə dəyişmişdir. Başqa valyutalardan isə avro və Yapon yeni ilə olan borc vəsaitlərinin xüsusi çəkisi üstünlük təşkil etmişdir. 2000-2004-cü illərdə avro ilə olan vəsaitlərin xüsusi çəkisi üzrə rəqəm 13,4 faiz bəndi azalaraq 3,61%-ə düşmüşdür, əksinə, Yapon yeni ilə olan vəsaitlərin xüsusi çəkisi isə 18%-dən 27%-ə yüksəlmişdir. Son 5 ildə bu istiqamətdə əks meyllər müşahidə edilməkdədir. Küveyt dinarı, Səudiyyə rialı və BƏƏ dirhəmində olan borc vəsaitlərinin xüsusi çəkisi isə 1%-ə çatmamışdır.

**5. Azərbaycanın davamlı iqtisadi inkişafında xarici borc amilinin rolunun qiymətləndirilməsi.**

İqtisadi münasibətlərin transformasiyası şəraitində milli iqtisadiyyatların inteqrasiyası proseslərinin sürətlənməsi ilə xarici dövlət borcunun ölkə iqtisadiyyatının inkişafına təsiri məsələləri və bundan irəli gələn, iqtisadi proseslərin öyrənilməsi getdikcə aktual əhəmiyyət kəsb etməkdədir. Eyni zamanda, borcun iqtisadi sistemin inkişafına təsiri ilə bağlı iqtisad elmində formalaşmış birmənalı mövqe yoxdur və borc amili və iqtisadi inkişaf arasında qarşılıqlı əlaqənin özü də olduqca mürəkkəbdir.

Borcla iqtisadi sistemin qarşılıqlı təsiri məsələlərinin araşdırılması zamanı iqtisadi artımla borcun artımı arasında olan münasibətlər, əlaqələrin nəzərdən keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu nisbətin müəyyən edilməsinə məcmu milli məhsulun artım səviyyəsi baxımından yanaşılır. İqtisadi artımın tempi nə qədər yüksəkdirsə və borca görə faiz dərəcələri nə qədər aşağıdırsa, dövlət öz xərclərini maliyyələşdirmək üçün cəlb etdiyi borc vəsaitlərindən bir o qədər səmərəli istifadə edə bilər.

1995-2001-ci illərdə ölkəmizin xarici borcunun onun ÜDM-də payı 12%-dən 22%-dək artmışdır. İqtisadi inkişafla əlaqədar olaraq son 11 ölkəmizdə ÜDM-in həcmi 12 dəfədən çox artmışdır. Keçən dövr ərzində xarici borcun da ÜDM-ə nisbəti 7,3%-ə düşmüşdür. Ölkədə adambaşına xarici borc isə 1995-ci ildə təxminən 37,9 ABŞ dollarından 2010-cu ildə 423,4 ABŞ dollarınadək artmışdır.

Araşdırma nəticəsində belə bir qənaətə gəlinir ki, ÜDM-in artım tempi müsbət meyllərlə müşahidə edildikdə, dövlət borcunun artması bir o qədər də təhlükəli xarakter kəsb etmir, yəni iqtisadi artım bunun üçün şərait yaradır. Belə bir vəziyyətdə borcun qaytarılmasında bir o qədər problem yaratmır. Eyni zamanda dövlət qiymətli kağızlarından daxil olan gəlirin səviyyəsi də mühüm təsir effektinə malik olur. Əgər faiz dərəcələri ÜDM-in artım tempindən yüksək olarsa,

yaxud da ÜDM-in tempi azalmağa doğru meylli olarsa, o zaman borcların qaytarılması ilə bağlı yaranan xərclər yeni cəlb edilmiş borc vəsaitlərinin həcmini ötüb keçir. Belə halda dövlət aldığı borcları qaytarmaq üçün büdcədən əlavə vəsaitlər cəlb etmək məcburiyyətində qalır.

Beynəlxalq təcrübədə qəbul edilmiş belə bir cəhət vardır ki, dövlət borcunun artım tempinin iqtisadi artım tempini ötüb keçməsi qısa müddət üçün yol veriləndir. Lakin iqtisadi artıma nisbətən borcun artımı və bu nisbətin uzun müddət davam etməsi xarici borcla bağlı müxtəlif parametrlərin, o cümlədən borc münasibətləri, borclanma prosesinin keyfiyyəti ilə bağlı bir sıra neqativ meyllərin baş verməsilə nəticələnə bilər.

Xarici dövlət borcunun iqtisadi inkişafa təsirində onun fiskal siyasətlə, eləcə də inflyasiya prosesilə qarşılıqlı əlaqələrinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bu vəsaitlər eyni zamanda büdcə kəsirinin maliyyələşdirilməsində də əsas vasitəsi kimi çıxış edərək, fiskal siyasətin bir aləti rolunu oynayır, dövlət xərclərinin maliyyələşdirilməsində vergi daxilolmalarına alternativ maliyyə vasitəsi kimi qiymətləndirilir. Bu tendensiya maliyyə bazarı inkişaf etmiş ölkələrdə daha çox müşahidə edilir.

Tədqiqat işində xarici borcun ölkə üçün təhlükə yarada biləcək səviyyəsini xarakterizə edən hədd göstəriciləri sosial-iqtisadi baxımdan araşdırılmışdır. Əgər xarici borcun həcmi MDM-un 50%-ni ötüb keçərsə, borcun ümumi məbləğinin qaytarılması da daxil olmaqla xarici borca xidmət üzrə öhdəliklərin həcmi ixracın 30%-dən çox olarsa, faiz ödəmələri ixracın 20%-ni ötüb keçərsə, bu, borclu ölkə üçün təhlükəli vəziyyət hesab edilir. Bu baxımdan hesab edirik ki, ölkə iqtisadiyyatına cəlb edilmiş xarici resursların həcminin gələcək iqtisadi inkişafa problem yaratmaması, borc böhranının baş verməsinin qarşısını almaq üçün borc artımının təhlükəli həddə çatan artım tendensiyasının qarşısını alan, borcun qaytarılması və ona xidmət mexanizmlərinin işlənib hazırlanması və xarici dövlət borcunun idarəedilməsi praktikasında bu mexanizmlərin tətbiqi və

onların çevikliyinin təmin edilməsi mühüm əhəmiyyət kəsb edir.

**6. Xarici borclanma şəraitində büdcə siyasəti.**

Dövlət büdcəsi hər bir dövlətin maliyyə sistemində çox mühüm həlqə olmaqla, ölkənin sosial-iqtisadi inkişafında, çox mühüm tənzimedici təsirə malikdir. Dövlət büdcəsi gözlənilən xərclər və gəlirlərin illik smetası kimi ölkənin əsas maliyyə planı olmaqla, milli iqtisadi sistemdə maliyyə resurslarının mərkəzləşdirilmiş hərəkətini əks etdirir. Büdcənin gəlir və xərclərinin tərtibində, onun planlaşdırılmasında tarazlığın pozulması gəlir və xərclər arasında kəmiyyət baxımından qeyri-bərabərliyə gətirib çıxarır, lakin bu gün bazar münasibətləri, iqtisadi inteqrasiya, qloballaşma proseslərinin sürətləndiyi vaxtda büdcə kəsiri olmayan ölkə tapmaq çox çətindir. Dövlət büdcəsinin kəsiri dövlətin öz imkanlarından artıq məsrəflər həyata keçirməsi fonunda yaranan bir maliyyə hadisəsidir.

Dövlət büdcə kəsirinin maliyyələşdirilməsində daxili və xarici mənbələrə istinad edilir. Məhz sonuncu vasitə dövlət borcunun artmasına gətirib çıxarır. Xarici borc resursları hesabına büdcə kəsirinin maliyyələşdirilməsi müəyyən bir zaman kəsiyində hökumətə bir sıra problemləri həll etmək imkanı yaratsa da, onların qaytarılması vətəndaşlar üçün sabah çətinliklər ortaya çıxarır. Bir sıra hallarda müxtəlif məqsədli investisiya layihələrinin maliyyələşdirilməsi ilə bağlı büdcə xərclərinin maliyyələşdirilməsində də borc resurslarından istifadəyə zərurət yaranır. Fikrimizcə bu, o halda qəbul edilə bilər ki, maliyyələşdirilən investisiya layihələri sosial-iqtisadi inkişaf məqsədlərinə xidmət etsin.

Dövlət büdcəsi gəlirlərinin artırılması məqsədilə vergi dərəcələrinin artırılması sonda təsərrüfat subyektlərinin tədiyyə qabiliyyətinin azalmasına səbəb ola bilir ki, bu da yenidən büdcə gəlirlərinin azalmasıyla nəticələnə bilər. Büdcə sistemi kifayət qədər çevik olmalıdır ki, borc vəsaitləri hesabına maliyyələşdirmənin mənfi təsirlərini neytrallaşdırmaq mümkün olsun. Digər tərəfdən, əgər xarici borcların qaytarılmasında

dövlət büdcəsinə yük düşürsə, büdcə müasir bazar sisteminə uyğun öz sosial, iqtisadi, tənzimləmə funksiyalarını tam həyata keçirə bilmir. Büdcə kəsiri və xarici borc problemi bütövlükdə iqtisadi proseslərin xarakterinə, gedişinə öz mənfi təsirini göstərir.

İnkişaf etmiş ölkələrdə büdcə xərclərinin maliyyələşdirilməsində vergi bazasının möhkəmləndirilməsi, regional səviyyədə vergi təminatının yaxşılaşdırılması məqsədilə ixtisaslaşdırılmış kredit institutları, müxtəlif maliyyə təşkilatları yaradılır, büdcələrarası münasibətlərin tənzimlənməsi, dövlət idarəetməsi məsələlərində büdcə münasibətlərinin tənzimlənməsi məsələləri diqqət mərkəzində saxlanılır. Xarici borc resurslarının büdcəyə təzyiqindən qorunmaq üçün büdcə gəlirləri və xərclərinin makroiqtisadi səmərəliliyinin qiymətləndirilməsi olduqca vacibdir. Bunun üçün dövlət xərcləri və gəlirlərinin strateji konsepsiyası işlənib hazırlanmalıdır. Bu zaman bütövlükdə cəmiyyətin maraqları çərçivəsində və sosial-iqtisadi inkişafın prioritetləri ilə onların maliyyə təminatının uyğunluğu kontekstində büdcə siyasətinin həyata keçirilməsi, bu istiqamətdə dövlət təminatının olması vacibdir.

Təkmilləşdirilmiş büdcə siyasəti, vahid büdcə sistemi milli iqtisadiyyatda uğurlu struktur dəyişikliklərinin həyata keçirilməsi, iqtisadi və sosial prosesləri səmərəli şəkildə tənzimləmək, elmi-texniki tərəqqinin nailiyyətlərinin müxtəlif sferalarda uğurlu tətbiqi, real sektorun inkişafı, büdcəyə daxil olan maliyyə vəsaitlərinin həcminin artmasına nail olmağa imkan verə bilər.

7. **Xarici borc öhdəliklərinin tənzimlənməsi sahəsində beynəlxalq təcrübədən istifadə imkanları və yolları.**

Tədqiqat işində qeyd edilir ki, xarici borc probleminin tənzimlənməsi daim təkmilləşdirilməyə ehtiyac duyulan bir prosesdir. Bir tərəfdən, debitor və kreditor qismində yeni ölkələrin bu proseslərə qoşulması, digər tərəfdən də xarici borcun onu alan ölkənin sosial-iqtisadi inkişafında ciddi təsir amilinə çevrilməsi həm borclu, həm də kreditor ölkələri problemin həlli

istiqamətində yeni variantlar axtarıb tapmağa məcbur edir.

Tədqiqat işində bu məqsədlə xarici borcla bağlı böhranlar, onların yaranma səbəbləri, xarici borc probleminin həlli və onun təkmilləşdirilməsi mexanizmləri, xarici borc öhdəliklərinin tənzimlənməsi sahəsində beynəlxalq təcrübə, borcla bağlı münasibətlərin tənzimlənməsində beynəlxalq mexanizmin, əməkdaşlığın formalaşması, xarici borcun mübadiləsi, konversiyası prosesləri, onların növləri, xarici borcun tənzimlənməsi sahəsində beynəlxalq müqavilələrlə bağlı məsələlərə xüsusi diqqət yetirilmişdir.

Milli iqtisadiyyatın kompleks inkişafı kontekstində xarici borc probleminin həlli, o cümlədən xarici borc siyasətinin işlənib həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Ölkənin sosial-iqtisadi inkişafı məqsədilə xarici mənbələrdən borc vəsaitlərinin cəlb edilməsi, onlardan istifadə edilməsi və xarici borcun qaytarılması ölkə iqtisadiyyatının inkişaf səviyyəsi, inkişaf perspektivləri ilə sıx bağlı olduğu üçün xarici borc amilinin təzyiqindən, mənfi təsirlərindən qorumaq məqsədilə istehsalın artımı, sənayenin strukturunun təkmilləşdirilməsi, innovatriv sahələrin yaradılması, inkişafı, ölkədə iqtisadi artımın sürətlənməsi, daxili bazarın, ixracın genişləndirilməsi, sənayenin ixrac potensialinin gücləndirilməsi, onun beynəlxalq rəqabətqabiliyyətinin artırılması, aktiv ticarət balansının saxlanılması, özəl sektora kreditlərin artırılması, iri dövlət müəssisələrinin özəlləşdirilməsi və digər tədbirlərin həyata keçirilməsi vacibdir.

**8. Azərbaycanın xarici borc siyasətinin perspektivləri.**

Hər bir ölkədə makroiqtisadi sabitliyin təmin edilməsi istiqamətində həyata keçirilən iqtisadi siyasətin çox mühüm istiqamətlərindən biri də xarici borc siyasətidir. Bu siyasət iki istiqamətdə həyata keçirilməlidir. Birinci istiqamət ölkə iqtisadiyyatının inkişafının maliyyələşdirilməsində xarici maliyyə mənbələrinin tapılması, vəsaitlərin milli iqtisadi sistemə, onun inkişafına yönəldilməsi və onlardan istifadənin konkret prioritetlərinin müəyyən edilməsidir. İkinci istiqamət isə alınmış xarici

borc vəsaitlərinin qaytarılmasının təmin edilməsidir. Onu da qeyd edək ki, hər iki istiqamət bir-birilə sıx qarşılıqlı əlaqədə olub, bir-birini tamamlayır. Hər hansı bir prioritet üzrə səmərəli, təkmil siyasətin həyata keçirilməsi digər bir istiqamətdə fəaliyyəti stimullaşdırır. Əks halda belə bir stimuldan danışmaq çətin olardı.

Dövlətin xarici borcla bağlı siyasətində diqqət yetirilməsi vacib olan məsələlərdən biri də yeni xarici borc vəsaitlərinin cəlb edilməsi üçün müddətin düzgün seçilməsi və iqtisadi inkişafın prioritetlərinə uyğun olaraq, xarici borcun optimal strukturunun düzgün müəyyən edilməsidir. Eyni zamanda hər il yeni cəlb edilən borc vəsaitlərinin, kreditlərin həcmi xarici borcun qaytarılan həcminə yaxın olmalıdır. Bu uyğunluğun təmin edilməsi xarici borcun həcminin ilbəil artmasının, onun dövlət büdcəsi, eləcə də gələcək nəsillər üçün borc yükünə çevrilməsinin qarşısının alınmasında əsas cəhətlərdən biri kimi çıxış edə bilər.

Xarici borcun strukturunun optimallığına nail olmaq üçün iki cəhətə yetirilməlidir. İlk öncə, borcun müddəti baxımından onun optimal strukturu müəyyən edilməlidir. İkincisi, xarici borcun əsas məbləğinin və faiz ödənişlərinin ödənilməsi qrafiki formalaşdırılmalıdır. Bir fakta da diqqət yetirmək lazımdır ki, hər bir yeni borc məbləği üçün qəbul edilən şərt xarici borc üzrə ödəmələrin ümumi qrafikinə məcmu halda təsir göstərə bilir. Xarici borc üzrə ödəmələrin müddəti və buna sərf olunan xərclərin azaldılması ilə bağlı məsələlər də xarici borc siyasətində istisna edilməməlidir.

Xarici borc siyasətində dövlətin daxili borc bazarının inkişaf etdirilməsi, dövlət büdcəsinin balanslaşdırılması, borclu ölkənin ödəmə qabiliyyətilə bağlı beynəlxalq arenada müsbət fikrin, rəyin formalaşmasına nail olmaq, dövlətin maliyyə və qızıl-valyuta ehtiyatlarının həcminin artırılması ilə bağlı məsələlər də diqqət mərkəzində saxlanılmalıdır. Borc siyasətinin mühüm prioritetlərindən biri də ölkənin xarici borc vəsaitlərinin cəlb edilməsi şərtlərinin optimallaşdırılması və onun

beynəlxalq borc kapitalı bazarında mövqeyinin normallaşdırılması, bu bazara daxil olma imkanlarının asanlaşdırılması üçün borclu ölkənin beynəlxalq maliyyə institutları, maliyyə təşkilatları, xarici investorlarla münasibətlərinin təşkilati təminatı, institusional strukturunun təkmilləşdirilməsi, onun optimallaşdırılması olmalıdır.

Dövlətin borc siyasətinin çox mühüm elementlərindən biri olan dövlət borclarının vahid idarə edilməsi sisteminin formalaşması və onun fəaliyyətinin təkmilləşdirilməsi bu vəsaitlərinin məqsədli şəkildə istifadə olunmasına şərait yaradır. Müvafiq orqanların fəaliyyətinin əlaqələndirilməsi, onların qarşılıqlı təsir mexanizmlərinin və qaydalarının qanunvericilik əsasında işlənib hazırlanması, bu orqanlar arasında informasiya mübadiləsi mexanizmlərinin hazırlanmasına da xüsusi diqqət yetirilməlidir. Borcların idarə edilməsi sistemində bu elementlərin təmin edilməsi borclarla bağlı xərclərin daimi nəzarətdə saxlanılması və optimallaşdırılmasına şərait yaradır.

Ölkənin xaric borc siyasəti iqtisadi artımın stimullaşdırılması istiqamətində siyasətin prioritetləri ilə sıx qarşılıqlı əlaqədə, vəhdətdə olmaqla, iqtisadi inkişaf kontekstində bir-birinə xidmət etməli və bir-birini tamamlamalıdır.

**Tədqiqat prosesində nəzəri və praktiki əhəmiyyət kəsb edən aşağıdakı mühüm nəticə və təkliflər irəli sürülmüşdür:**

Xarici borc resurslarının cəlb edilməsinin bazar metodlarının inkişaf etdirilmsi məqsədilə qiymətli kağızlar bazarının inkişafı və borc qiymətli kağızlarının müxtəlif növlərinin buraxılışı təmin edilməlidir;

- yerli istehsalın ixrac fəaliyyətinin həyata keçirilməsi və inkişaf etdirilməsi istiqamətində ölkənin bank sisteminin uzunmüddətli kreditləşmənin təmin edilməsi ilə bağlı potensialı artırılmalıdır;
- dünya bazarında vəziyyətin öyrənilməsi və bunun fasiləsizliyinin təmin edilməsi məqsədilə analitik informasiya-məsləhət xidməti şəbəkəsinin təşkil olunmalıdır;

Xarici borcun iqtisadi inkişafa təsirinin öyrənilməsi

fonunda istifadə edilən göstəricilər sırasında əmək ehtiyatları, iqtisadi fəal əhali üzrə və iqtisadi fəal əhalinin strukturunda məşğul olanlara görə adambaşına xarici borcun həcmi göstəricilərindən də istifadə edilməsi məqsədəuyğun olardı;

Bir sıra hallarda ölkənin milli valyutasının kursunun idarə olunması problemi də yuxarıda haqqında danışdığımız məsələlərə öz təsirini göstərir. Yerli istehsalın rəqabətqabiliyyətinin və ölkənin ixrac potensialının qorunması üçün milli valyutanın aşağı kursu təmin edilir. Milli valyutanın kursunun aşağı saxlanması idxalın artımına əks təsir göstərir və ixraca təkan verir və ixracın fiziki həcmi artır;

Ölkənin beynəlxalq borc kapitalı bazarına uğurlu inteqrasiya olunması məqsədilə aşağıdakıların həyata keçirilməsi zəruridir:

- ölkənin iqtisadi-maliyyə vəziyyəti barəsində xarici investorlara və reytinq agentliklərinə vaxtlı-vaxtında və dəqiq, informasiyanın çatdırılması üçün sadə, çevik mexanizmi yaradılmalıdır;
- xarici kreditorlarla, investorlarla qarşılıqlı münasibətlərin formalaşması məsələləri ilə bağlı, eləcə də bu münasibətlərin tənzimlənməsi, nizamlanması məsələlərində fəaliyyətin əlaqələndirilməlidir;
- dövlət orqanlarının və idarələrinin birgə fəaliyyətinin əlaqələndirilməsi mexanizminin formalaşdırılması;

Dövlətin daxili və xarici borc siyasətinin səmərəliliyinin artırılması və çevik nəzarətin təmin edilməsi istiqamətində aşağıdakı tədbirlərin yerinə yetirilməsini məqsədəuyğun hesab edirik:

- dövlət borclarının həcmi qaytarılmalı olan dövlət borcunun həcmini ötüb keçməməlidir, ondan çox olmamalıdır;
- dövlət borcunun həcmi və strukturu imkan verməlidir ki, hökumət bu borcların qaytarılması və onlara xidmət üzrə öhdəliklərini təminatlı şəkildə yerinə yetirə bilsin. Bu, dövlət büdcəsinin imkanlarından və konkret dövr üçün xarici iqtisadi konyukturanın dəyişməsindən asılı olmayaraq, borcun yenidən maliyyələşdirilməsi imkanını təmin etməlidir;

- dövlətin borc siyasəti onun daxili və xarici bazarlardan borc resurslarının cəlb edilməsi ilə bağlı şəraitin dəyişməsinə qarşı çevik olmalıdır;

- xarici dövlət borcunun qaytarılmasında, o cümlədən xarici borc yükünün azaldılmasında optimal mənbələr müəyyən edilməli və bu borclu ölkənin milli iqtisadiyyatının inkişafı və dünya bazarına inteqrasiyası çərçivəsində təmin edilməlidir;

- maksimum dərəcədə dövlət borclarının strukturunda daxili borclara nisbətdə xarici borcun xüsusi çəkisinin azaldılmasına nail olmalıdır;

- xarici borcların qaytarılması və faiz ödəmələri vaxtında yerinə yetirilməlidir;

- ölkənin beynəlxalq borc münasibətləri sisteminə inteqrasiyası onun siyasi-iqtisadi, sosial maraqları çərçivəsində təmin edilməlidir.

Borcların idarə edilməsi sistemi aşağıdakı vəzifələrin həllini nəzərdə tutulmalıdır:

- daxili və xarici borcların səviyyəsi ölkənin iqtisadi təhlükəsizliyinə, sosial-iqtisadi proqramların icrasına müsbət təsir edə biləcək həddə saxlanılmalıdır;

- xarici borclanma çərçivəsində ümumdövlət proqramlarının maliyyələşdirilməsinin məqsədəuyğunluğu və imkanları müəyyən edilməlidir;

- xarici borclanma prosesində inkişaf etmiş bazar iqtisadi sisteminə uyğun müasir alətlərin tətbiqi imkanları genişləndirilməli və borcun idarəedilməsi sistemi təkmilləşdirilməlidir;

- xarici borc vəsaitləri hesabına maliyyələşdirilən investisiya layihələri diqqətlə işlənib hazırlanmalı və onların reallaşması prosesi sonadək daim nəzarətdə saxlanılmalıdır;

- xarici borc vəsaitlərindən istifadənin səmərəliliyinə və məqsədəuyğunluğuna daimi nəzarətin təmin edilməsi baxımından monitorinq sistemi yaradılmalıdır;

- yuxarıda qeyd edilən vəzifələrin həyata keçirilməsi istiqamətində bütün səlahiyyətli orqanların fəaliyyəti optimal əlaqələndirilməlidir.

**Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı əsərlərdə öz əksini tapmışdır:**

1. Hüseynov A.A. "Bazar iqtisadi sistemi və xarici borclanma problemi". Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. Humanitar və İctiami Elmlər seriyası (İqtisadiyyat). Bakı. «Elm», 2007, №4. 0,4 ç.v.

2. Xarici borclar və Azərbaycan Respublikasının beynəlxalq maliyyə qurumlarına inteqrasiyası. Azrbaycan Dövlət İqtisad Universiteti. «Milli iqtisadi inkişafın Azərbaycan modeli» mövzusunda beynəlxalq konfransın tezisləri. Bakı-2007. 0,15 ç.v.

**3.** Hüseynov A.A. " Xarici dövlət borcunun formalaşması məsələləri". Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. Humanitar və İctimai Elmlər seriyası (İqtisadiyyat). Bakı. «Elm», 2008, №2. 0,5 ç.v.

4. Hüseynov A.A. "Xarici dövlət borcu – aktual bir problem kimi". Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. Humanitar və İctimai Elmlər seriyası (İqtisadiyyat). Bakı. «Elm», 2008, №1. 0,4 ç.v.

5. Hüseynov A.A. "Xarici dövlət borcu və iqtisadi inkişaf məsələləri". "İqtisadiyyat və audit" Aylıq elmi-praktik jurnal, 2009, №2(104), 0,5 ç.v.

6. Hüseynov A.A. "Maliyyə qloballaşması və xarici borc problem". Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. Humanitar və İctimai Elmlər seriyası (İqtisadiyyat). Bakı. «Elm», 2009, №2. 0,5 ç.v.

7. Hüseynov A.A. "Xarici borc, kapitalın hərəkəti və onun iqtisadi inkişafa təsirinin nəzəri-metodoloji məsələləri." İqtisadiyyat və audit. Aylıq elmi-praktik jurnal, 2008, №9(99). 0,7 ç.v.

8. Hüseynov A.A. Анализ ситуации, сложившейся на рынке внешних долгов Азербайджанской Республики. Проблемы экономики, №1(35), 2010. 0,6 ç.v.

**Anar Aktiv oglu Huseynov**

## Impacts of foreign national debts on domestic economic development

Efficient use of foreign financial resources collected from foreign sources is one of the core factors influencing social indicator of the country. This process necessitates availability of areas to directly have progressive impacts on the country's economic structures, overall economic modernization as a whole, as well as integration of national economy into the global economic system through creating conditions for integrated social and economic development. Today, Azerbaijan, which has embarked on the course for fast-moving development, has done a lot work towards re-building and updating economic structure in response to the integration to the international economic system. In this regard, continuous and decisive measures are taken in practical terms, as well as towards shaping and improvement of legislatively-legal framework. Therefore, researching potential use of external debts is of great importance in the context of the overall development of national economy. To this extent, the subject matter of the dissertation is devoted to topical issues.

The dissertation analyzed the current conditions in external debt in the country, through assessing the influence of external debts on our economy, assessed the impact of external debts on economic development, and studied the relation between budget deficits and the external/foreign debt.

The dissertation studied decision making on external debt problems and improvement of possible related mechanisms, and external debt-related crises within the global economic system in this context, as well as relationships with a variety of financial institutions in the area of external debt regulation, and summarized practices adjusting external debt attitudes at the international level.

As to one of the significant trends within the external national debt policy, the paper detailed regular activities how to facilitate shaping and preserving a positive opinion on the government's credit solvency/lending capacity by international financial organizations and institutions, as well as within the international debt market.

In conclusion summarizes the major scientific and practical research results.

**Гусейнов Анар Актив оглы**

## Влияние внешнего государственного долга на экономическое развитие страны

Рациональное использование финансовых ресурсов, вовлеченных из зарубежных источников, является одним из факторов, влияющих на социально-экономическое развитие страны. Этот процесс реализует развитие областей, которые могут создать прогрессивные изменения непосредственно в структуре экономики страны, всестороннем развитии экономики в целом, необходимость интеграции национальной экономики с мировой экономической системой, наряду с созданием условий для комплексного социально-экономического развития. Сегодня в нашей республике, которая вступила на ускоренный путь развития, сделано много работ в направлении перестройки экономической структуры и модернизации в условиях интеграции с международной экономической системой. В связи с этим, и в практической области, и в направлении формирования и усовершенствования законодательно-юридической базы, предпринимаются последовательные и решительные меры. Поэтому, проведение исследований в направлении изучения возможностей по использованию ресурсов внешних долгов в контексте комплексного развития национальной экономики, имеет особое значение. В этом смысле тема диссертации посвящена актуальной проблеме.

В диссертации, на фоне оценки фактора влияния внешнего долгф на экономику нашей страны, проанализировано современное состояние проблемы внешнего долга в нашей республике, оценено влияние фактора внешнего долга на экономику, изучены связи между бюджетным дефицитом и внешним долгом.

Исследованы пути решения проблем внешнего долга в нашей республике, вопросы усовершенствования существующих механизмов в этом направлении, происходящие кризисы в глобальной экономической системе, связанные с внешним долгом на фоне этого подхода, проанализированы отношения, связанные с разными финансовыми институтами в области урегулировании внешнего долга, проведено обобщение опыта, связанного с урегулированием долговых отношений на международном уровне.

Обширное место было выделено, как одному из важных направлений в политике внешнего государственного долга, проблемам по претворению в жизнь, регулярной деятельности в направлениях по формированию положительных отзывов о платежеспособности государства в зарубежных государствах, в международных финансовых организациях и институтах, в международных долговых рынках, и по их защите.

В заключении обобщены основные научные и практические результаты исследования.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**ГУСЕЙНОВ АНАР АКТИВ ОГЛЫ**

# ВЛИЯНИЕ ВНЕШНЕГО ГОСУДАРСТВЕННОГО ДОЛГА НА ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ СТРАНЫ

**Специальность: 5301.01 – Внутреняя фискальная политика и государственное финансирование**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации по присуждению научной степени доктора философии по экономике

**БАКУ - 2013**